*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   16 dekabr 2015-ci il   № 96 (2012)   Qiyməti 25 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 12 il keçir.***





Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.

Ulu öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, ulu öndər, böyük rəhbər, ümummilli lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur". Bu sözləri deyən ulu öndər Heydər Əliyev istər Sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdriklik və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də "Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi. Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən doğma Vətəni Azərbaycana gəldi. Özü də tək gəldi. Amma milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Düzgün, müdrik siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında, xalqının xilaskarına çevrildi.

Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi...

Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və oğlu Heydər Əliyev ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

**AZƏRTAC**

# Ulu öndərə ehtiram

***Ölkəmizin tərəqqisi naminə gördüyü böyük işlərə görə hər bir vətənsevər azərbaycanlının qəlbində möhtəşəm abidə ucaltmış ümummilli lider Heydər Əliyevin dünyasını dəyişdiyi vaxtdan artıq 12 il ötür. Respublikamızın hər yerində bu nadir şəxsiyyətin xatirəsinə həsr edilmiş tədbirlər keçirilir. Bugünkü müasir, qüdrətli Azərbaycan Silahlı Qüvvələrinin yaradıcısı olan ulu öndər zabit, gizir və əsgərlər arasında da həmişə dərin hörmət və ehtiramla anılır. Ordumuzun birlik və birləşmələrində də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, böyük öndərin anılması ilə bağlı silsilə anım mərasimləri keçirilir.***

Dekabrın 11-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Heydər Əliyevin ideyalarına sadiqik" devizi altında keçirilən mərasimdə böyük öndərin xatirəsi ehtiramla yad edildi. Silahlı Qüvvələrimizin zabit, gizir və əsgərlərinin, hərbi təhsil müəssisələri müəllim və kursantlarının qatıldığı tədbirə ölkəmizin tanınmış ziyalıları, ümummilli liderimizin silahdaşları, elm və mədəniyyət xadimləri dəvət edilmişdilər.

Öncə ümummilli liderin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycanın Dövlət himni səsləndirildi.

Müdafiə Nazirliyinin zabiti Abdulla Qurbani "Heydər Əliyevsiz 12 il - 12 il Heydər Əliyev yolu ilə" mövzusunda çıxış etdi.

Polkovnik həyat yolu və çoxşaxəli fəaliyyəti hər bir azərbaycanlı üçün örnək olan ümummilli liderin həm keçmiş Sovetlər Birliyi vaxtında, həm də müstəqillik illərində Azərbaycanın siyasi-iqtisadi, sosial və mədəni sahələrdə gördüyü işlərdən danışdı.

Ümummilli liderin xilaskarlıq missiyasına toxunan natiq ölkəmizin müstəqillik qazandığı ilk illərdə baş vermiş keşməkeşli mürəkkəb hadisələri xatırlatdı və hakimiyyətə qayıtdıqdan sonra böyük öndərin zəngin dövlətçilik təcrübəsi və müdrikliyi sayəsində Azərbaycanın inkişaf yoluna qədəm qoyduğunu, ordu quruculuğunda əsaslı işlərin həyata keçirilməsini salona toplaşanların diqqətinə çatdırdı, dövlətimiz üçün göstərdiyi əvəzolunmaz xidmətlərə görə Heydər Əliyevin əbədiyaşarlıq qazandığını söylədi.

Ümummilli liderin ən yaxın silahdaşlarından olmuş Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Eldar İbrahimov böyük öndər Heydər Əliyevin Azərbaycan naminə gördüyü işlərdən danışdı və onunla bağlı unudulmaz xatirələrini mərasim iştirakçıları ilə bölüşdü. Sovet rəhbərliyindən istefaya getdikdən sonra doğulduğu Naxçıvana dönəndən sonra ümummilli liderin yenidən böyük siyasətə qayıtdığını, burada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını ilk dəfə qaldırdığını mərasim iştirakçılarının diqqətinə çatdırdı. Millət vəkilinin sözlərinə görə, məhz böyük öndərin müdrikliyi və dövlətçilik təcrübəsi sayəsində Sovet diviziyası bütün silah və sursatı bir güllə atmadan naxçıvanlılara təhvil verdi ki, bu da blokada şəraitində olan Muxtar Respublikanın təhlükəsizliyinin qorunmasında əsas rol oynadı.

**(Ardı 2-ci səhifədə)**

# Böyük gələcəyə hesablanan addımlar

***Sağlam ruhlu gəncliyin vətəndaş cəmiyyətində mövcudluğu o ölkənin gələcəyinin var olması, durmadan inkişafı deməkdir. Müdriklərimiz əbəs yerə deməyib ki, gənclər gələcəyimizdir. Dünyanın bütün inkişaf etmiş ölkələrində gənclərə münasibət xüsusi konsepsiya üzrə istiqamətlənir.***

Azərbaycanda dövlət gənclər siyasətinin formalaşması məhz ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasətin təməli hələ ulu öndərin siyasi hakimiyyətinin birinci dövründə qoyulmuşdur. Ötən əsrin 70-80-ci illərində dahi rəhbərimizin diqqət və qayğısı sayəsində hər il minlərlə azərbaycanlı gənc keçmiş ittifaqın ali məktəblərində müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Daim ölkənin kadr potensialını düşünən dahi rəhbər təhsil strategiyasının inkişafına önəm verirdi. O, hər vəchlə çalışırdı ki, gənclərimiz savadlansın, Vətənini sevən əsl vətəndaş kimi yetişsinlər.

Azərbaycanlı gənclərin hərbi təhsil almaları da daim diqqət mərkəzində idi. 1971-ci ilin 29 aprel tarixində gənclərin hərbi xidmət üçün ordu sıralarına hazırlanması haqqında qərar imzalanır. Bu qərarda xüsusi yer alan əsas məsələlərdən birinin - azərbaycanlı gənclərin zabitlik peşəsinə yiyələnməsi məqsədilə müxtəlif təşkilatların və hərbi komissarlıqların qarşısında vacib məsələlər qoyulurdu. 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması məhz böyük dövlət xadimi Heydər Əliyevin uzaqgörənliyinin nəticəsi idi.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın müstəqillik dönəmində ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra da gənclərin təşkilatlandırılması dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edilmişdi. Ulu öndərimizin banisi olduğu dövlət gənclər siyasətinin kökündə əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında vətənpərvər gənc nəslin yetişdirilməsi məsələsi dayanırdı. O, hər zaman gənclərə böyük ümidlər bəsləyir, "Azərbaycanın gələcəyi gənclərin əlindədir" deyə bəyan edirdi. Gənclərimizə tariximizi, ana dilimizi, milli-mənəvi dəyərlərimizi gözəl bilməyi tövsiyə edən dahi rəhbərimiz Azərbaycanın müstəqilliyinin əbədi olmasında və ərazi bütövlüyümüzün təmin edilməsində əsas meyar kimi müasir gəncliyin hərbi vətənpərvərliyini önə çəkirdi. "Vətənpərvərlik böyük bir məfhumdur. Bu sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur, vətənpərvərlik". Ulu öndər 1994-cü ilin əvvəllərində cəbhəyə yola düşən gənclərlə görüşündə demişdi: "Unutmayın ki, hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durub. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, öz atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün cəbhəyə yola düşürsünüz. Sizin hər bir uğurlu addımınız Azərbaycan Pespublikasının müstəqilliyinə, ərazi bütövlüyünə kömək edəcəkdir".

1993-cü ilin iyununadək ordudan fərarilik etmiş on minlərlə gənc ölkə rəhbərinin bir çağırışı ilə milli ordunun sıralarına qayıtdı. Dahi rəhbərimizin humanist addımlarından biri də Milli Məclis tərəfindən 17 oktyabr 1997-ci ildə qəbul edilən "Amnistiya haqqında" qərar oldu. Qərara əsasən, əvvəllər fərarilik etmiş hərbi qulluqçular (əksəriyyəti gənclərdən ibarət idi) barəsində amnistiya aktı tətbiq edildi. Vaxtilə müxtəlif səbəblərdən hərbi hissələri özbaşına tərk etmiş bu gənclər əfv edilərək, yenidən onlara Azərbaycan Pespublikasının qanunlarına müvafiq olaraq hərbi xidmət keçmələrinə imkan verildi. Həmin gənclər bu amnistiya aktı nəticəsində sağlam həyata - azadlığa qovuşdular. Bu addım onların dövlətə, rəhbərə inamının artırılmasında mühüm rol oynadı.

Ümummilli liderimiz dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gənclərin iştirakının təmin edilməsini çox vacib məsələ hesab edirdi. Bu məqsədlə 1994-cü il iyunun 26-da Gənclər, İdman və Turizm Nazirliyi yaradıldı. 2 fevral 1996-cı il tarixdə isə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. Bu toplantıda çıxış edən ulu öndər gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". O çıxışında ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinin də Azərbaycan gəncliyinin qarşısında duran mühüm vəzifələrdən biri olduğunu demişdi: "Hər bir gənc orduya səfərbər olmağa hazır olmalı və orduda xidmət etməyi özünə şərəf bilməlidir".

Ümummilli liderimizin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də ölkədə gənclər siyasətinə eyni diqqətlə yanaşaraq, hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti kimi idmanın müxtəlif növlər üzrə inkişaf etdirilməsinə gənclərin cəlb edilməsinə xüsusi önəm verirdi. İllər ərzində onun rəhbərliyi ilə Azərbaycanın gənc idmançıları bir sıra olimpiya oyunlarında yüksək nəticələr əldə edərək layiqincə mükafatlandırılıblar. Ölkə Prezidenti İlham Əliyevin gənclərə diqqət və qayğısının nəticəsi olaraq 2005-ci ildə "Azərbaycan Gəncliyi Dövlət Proqramı" imzalanıb. 2007-ci il "Gənclər ili" elan edilib. 3 oktyabr 2008-ci ildə isə Prezident İlham Əliyev Azərbaycan gənclərinin V forumunda iştirak edib.

İftixar hissi ilə qeyd edilməlidir ki, bu il Bakı-2015 Avropa oyunlarının dünyada ilk dəfə Azərbaycanda keçirilməsi xalqımızın həyatında əlamətdar tarixi hadisə oldu. Minlərlə könüllü gəncimiz səfərbər edilərək mühüm əhəmiyyətli idman tədbirində yüksək fəallıq göstərdi.

Beləliklə, bu gün dövlətin uğurlu gənclər siyasətinin həyata keçirilməsi Prezident İlham Əliyevin siyasi fəaliyyətinin əsasını təşkil edir.

**"Azərbaycan Ordusu"**

# Ümummilli liderin xatirəsi yad edildi





***Bu günlərdə böyük hörmət və ehtiramla yad etdiyimiz böyük öndər Heydər Əliyevin mənalı həyatı və çoxşaxəli fəaliyyəti milli-mənəvi irsimizi təşkil edir və gənc nəsillər üçün, sözün həqiqi mənasında, örnək hesab edilir.***

Müasir Azərbaycan tarixinin yaxın bir qərinədən artıq müddəti dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ömrünü Azərbaycan xalqının xoş gələcəyinə həsr etmiş ümummilli liderimiz həm keçmiş Sovetlər Birliyi dövründə, həm də müstəqillik illərində ölkəmizin tərəqqisi üçün böyük işlər görmüşdür. Həyatımızın elə bir sahəsi olmaz ki, bu böyük dövlət adamının bilavasitə diqqəti və fəaliyyəti nəticəsində dəyişib inkişaf etməsin. Bu səbəbdən ümummilli lider müasir Azərbaycan dövlətinin memarı və banisidir.

Ölkəmizin iqtisadi, siyasi, elmi, mədəni, hərbi sahələrində Heydər Əliyev fəaliyyətinin dərin və zəngin izləri qalmaqdadır. Hələ Sovet dövründə Azərbaycanın rəhbəri uzaqgörənliklə ölkəmizdə gənclərin hərbi təhsilə və xidmətə yönləndirilməsi üçün çox iş görmüşdü.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyi haqlı olaraq Heydər Əliyev Məktəbi adlandırırlar. Sovetlər dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev böyük cəsarət və zəhmət bahasına 1971-ci ildə bu məktəbin paytaxtımızda yaradılmasına nail oldu. Bu gün Silahlı Qüvvələrimizdə xidmət edən yüzlərlə zabit, neçə-neçə general hərbçi sənətinin əlifbasına bu məktəbdə yiyələnib. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov da bu məktəbin yetirməsidir və ilk hərbi vərdişləri indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseydə qazanıb.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Heydər Əliyev xalqın təkidli dəvətilə hakimiyyətə qayıtdı, ölkə müharibə girdabından azad olmağa başladı, dövlətçiliyimizin bütün sahələrində olduğu kimi, formalaşmaqda olan Silahlı Qüvvələrimizdə də köklü islahatların həyata keçirilməsinə, elmi əsaslarla ordu quruculuğu prosesinə start verildi və Azərbaycan sabit inkişaf yoluna qədəm qoydu.

Müstəqillik dövründə respublikamızda məhz böyük öndərin diqqət və qayğısı ilə daha bir ali hərbi təhsil ocağı - Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi fəaliyyətə başladı. Məktəbin yetirmələri hazırda Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarında xidmətlərini uğurla davam etdirir, səmamızın aydınlığı keşiyində rəşadətlə dayanırlar.

Bir faktı da qeyd etməyə dəyər ki, 1998-ci ildən Silahlı Qüvvələrimizin Hərbi Akademiyası fəaliyyətə başlayıb və ordumuzda yüksək vəzifələrə hazırlanan zabitlər burada təhsillərini artırırlar.

Böyük öndərin siyasi kursunu bu gün onun layiqli yetirməsi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ləyaqətlə davam etdirməkdədir. İndi Silahlı Qüvvələrimiz Cənubi Qafqazın ən qüdrətli güc strukturuna çevrilib və qarşısına qoyulan bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmək iqtidarındadır.

Artıq 12 ildir ki, dünyasını dəyişmiş böyük dövlət adamının xatirəsini qədirbilən hərbçilərimiz də hörmət və ehtiramla xatırlayırlar. Bu günlərdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Silahlı Qüvvələrimizin ayrı-ayrı qoşun növlərinə məxsus hərbi hissələrdə, hərbi tədris müəssisələrində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş silsilə tədbirlər keçirilib.

Dekabrın 12-də Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini yad etmək üçün Fəxri xiyabanı ziyarət edib. Hərbi qulluqçular ulu öndərin xatirəsini hörmət və ehtiramla anaraq, məzarı üzərinə gül dəstələri qoyublar.

**"Azərbaycan Ordusu"**

# Ulu öndərə ehtiram



**(Əvvəli 1-ci səhifədə)**

Xalqın tələbilə Bakıya qayıdaraq müstəqil Azərbaycana rəhbərliyə başladıqdan sonra, dövlət çevrilişi cəhdlərinə, müxtəlif çətinliklərə baxmayaraq, böyük öndər ölkəmizi ağır böhrandan xilas etdi, inkişaf və tərəqqi yoluna çıxardı. Bu gün ümummilli liderin yolunu onun varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ləyaqətlə davam etdirir.

Çıxış üçün söz alan millət vəkili, professor Xanhüseyn Kazımlı dəfələrlə cəbhə bölgələrində olduğunu söylədi, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu sahəsində əldə edilmiş nailiyyətlərdən qürur duyduğunu bildirdi.

Əsərləri dünyanın bir çox dillərinə tərcümə edilmiş yazıçı-dramaturq, millət vəkili Hüseynbala Mirələmov ümummilli liderimizin dünyaşöhrətli siyasət adamı olmaqla yanaşı, həm də böyük insani keyfiyyətlərə malik olduğunu dilə gətirdi, oxuduğu bütün təhsil ocaqlarında əla qiymətlər aldığını salona toplaşmış kursantların diqqətinə çatdırdı, ondan nümunə götürməyin vacibliyini vurğuladı.

İqtisad Universitetinin rektoru professor Ədalət Muradov hələ Sovet dövründə Azərbaycanın Konstitusiyasına dəyişikliklər edilərkən məhz böyük öndərin təşəbbüsü və cəsarətilə Azərbaycan dilinin respublikanın dövlət dili statusu qazandığını minnətdarlıq hissilə bildirdi.

"Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə böyük öndərin həyat və fəaliyyətinin müxtəlif aspektlərindən söz açdı, onun bir gün yox, ilin bütün günlərində xatırlanmağa layiq olduğunu söylədi.

Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin "Əbədi məşəl" poeması əsasında hazırlanmış ədəbi-musiqili kompozisiya salona toplaşanların alqışları ilə qarşılandı.

Azərbaycan Milli Opera və Balet Teatrının solisti, xalq artisti Azər Zeynallı, əməkdar artist Ramil Qasımov, Azərbaycan dövlət mükafatları laureatı, xalq artisti, professor Amaliya Pənahovanın rəhbərlik etdiyi Bakı Bələdiyyə Teatrı aktyorlarının və Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblı solistlərinin ifasında səslənən mahnı və ədəbi nümunələr ümummilli lider Heydər Əliyevin xatirəsinə hörmət və ehtiramın təcəssümü kimi səsləndi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Daha bir yeni hərbi şəhərcik istifadəyə verilib

## Cari ildə onuncu hərbi hissənin açılışı olub






***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, yeni tikilmiş növbəti hərbi hissənin açılışı olub.***

Müdafiə Nazirliyinin rəhbərliyi inşa edilən qərargah, əsgər yataqxanaları, xidməti, tədris və istirahət otaqları, brifinq zalı, döyüş texnikası üçün saxlanclar, sıra meydanı, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana, qazanxana kompleksi və digər obyektlər ilə tanış olub.

Şəxsi heyət qarşısında çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirib:

"Bu gün ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ordu quruculuğuna göstərilən yüksək diqqətin nəticəsində biz növbəti hərbi şəhərciyin açılışında iştirak edirik. Ali Baş Komandanın göstərişinə əsasən cari ildə artıq yeni tikilmiş onuncu hərbi şəhərciyin açılışını həyata keçiririk. Ən müasir, bütün avadanlıqlarla təchiz olunan hərbi hissə şəxsi heyətin istifadəsinə verilir.



Xüsusi qeyd etmək istəyirəm ki, möhtərəm cənab Prezident İlham Əliyev Silahlı Qüvvələrimizin bütün istiqamətlər üzrə inkişafını ciddi nəzarətdə saxlayır. Ordunun döyüş hazırlığı yüksəlir, hərbi hissələr yeni silah-sursatla, ən müasir döyüş texnikası ilə təmin olunur, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşır, daimi və xidməti mənzillər istifadəyə verilir. Dövlətin və xalqın etimadını doğrultmaq üçün biz gərək gecə-gündüz çalışaq və xidməti-döyüş hazırlığımızı yüksək səviyyədə təşkil edək.

Qarşımızda torpaqlarımızı işğaldan azad etmək kimi əsas və müqəddəs vəzifə dayanır. Silahlı Qüvvələrimiz cəbhədə düşmənə sarsıdıcı zərbələr vurur və nəticədə qarşı tərəf çoxlu sayda itkilər verir. İndiki mərhələdə düşmənin bütün ordusu ilə bizim ordumuzun yalnız kiçik bir qismi mübarizə aparır. Nə qədər ki, torpaqlarımız işğaldan azad olunmayıb, biz hər qarış torpağımıza görə sonadək vuruşacağıq.

Bundan sonra düşmənə qarşı daha ciddi tədbirlər görəcək, ona daha sarsıdıcı zərbələr endirəcəyik. Onda düşmən Azərbaycan əsgərinin, Silahlı Qüvvələrimizin gücünü daha çox hiss edəcək. Məqsədimiz düşmənə sarsıdıcı zərbələr endirərək onu işğal olunmuş torpaqlarımızdan qovmaqdır. Biz bu işi bundan sonra daha da sərt şəkildə həyata keçirəcəyik. İşğalçılar torpaqlarımızı nə qədər tez tərk etməli olduqlarını anlasalar, itkiləri bir o qədər az olar. Düşmənlərimiz də bunu bilməli və anlamalıdırlar".

Şəxsi heyət təntənəli marşla tribunanın önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi ərazi ilə tanış olub, müvafiq göstəriş və tövsiyələrini verib, hərbi qulluqçularla birlikdə nahar edib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Bakıda Azərbaycan-Türkiyə 8-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilib

***Dekabrın 14-də Bakıda Azərbaycan-Türkiyə 8-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilib.***

İclasda nümayəndə heyətləri Siyasi-Hərbi, Maddi-Texniki Təminat və Müdafiə Sənayesində Əməkdaşlıq üzrə yardımçı işçi qruplarında əməkdaşlığın cari vəziyyətini bir daha nəzərdən keçiriblər.

Toplantıda, həmçinin, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətləri müzakirə edilib.

Dekabrın 15-də Azərbaycan-Türkiyə 8-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası öz işini başa vurub. İki gün ərzində Siyasi-Hərbi, Maddi-Texniki Təminat və Müdafiə Sənayesində Əməkdaşlıq üzrə yardımçı işçi qruplarında ikitərəfli əməkdaşlığın geniş spektri nəzərdən keçirilib. Qarşıda duran tapşırıqların yerinə yetirilməsi üçün əsas fəaliyyət istiqamətləri müzakirə edilib və İclasın nəticələrini əks etdirən yekun Protokol imzalanıb.

Tədbirdə Azərbaycan tərəfdən Müdafiə Nazirliyinin və Müdafiə Sənayesi Nazirliyinin, Türkiyə tərəfdən isə Baş Qərargahın və Milli Müdafiə Nazirliyinin geniş tərkibdə nümayəndə heyətləri iştirak ediblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi qulluqçumuz həlak olub

Dekabrın 14-də qoşunların təmas xəttində düşmənlə döyüş toqquşmasında Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Rəhimli Nihad İltifat oğlu həlak olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Müdafiə Nazirliyi bildirir ki, qoşunların təmas xəttində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət bütünlüklə Ermənistanın cinayətkar hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

## Ermənistan Silahlı Qüvvələrinə məxsus daha bir uzun müddətli atəş nöqtəsi Silahlı Qüvvələrimizin bölmələri tərəfindən endirilən zərbə nəticəsində məhv edilib

Silahlı Qüvvələrimizin bölmələrinin fəaliyyəti nəticəsində qoşunların təmas xəttində düşmənin təxribat cəhdlərinin qarşısı daha qətiyyətlə alınır.

Müxtəlif istiqamətlərdə əvvəlcədən müəyyən edilmiş koordinatlar üzrə düşmənin cəmləşdiyi nöqtələrə vurulan zərbələr nəticəsində erməni tərəfinin uzun müddətli atəş nöqtəsi sıradan çıxarılıb və məlumata görə o canlı qüvvə sarıdan ən azı 3 (üç) nəfər itki verib.

## Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq dekabrın 16-da Qazax rayonunun Bala Cəfərli kəndi yaxınlığındakı təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Piter Svedberq və Saymon Tiller keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov və Jiri Aberle keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***15 dekabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 96 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, Dovex, İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Kəmərli və Qızılhacılı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Qaraqaşlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 100 dəfə atəş zərbəsi endirib.

# Silahlı Qüvvələrdə ümummilli liderin xatirəsi anılıb



***Dekabrın 12-də Silahlı Qüvvələrin bütün qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmələr, xüsusi təyinatlı təhsil müəssisələrinin şəxsi heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini anma günü münasibəti ilə keçirilən mərasimlərdə iştirak edib.***

***Hərbi qulluqçular bölgələrdə yerləşən Heydər Əliyev Mərkəzlərini, eləcə də ulu öndərin abidələrini ziyarət edib, dahi şəxsiyyətin xatirəsini anaraq ehtiramlarını bildiriblər.***

***"N" hərbi hissəsinin şəxsi heyəti ulu öndər Heydər Əliyevin Gəncə şəhərindəki heykəlini ziyarət edərək Heydər Əliyev Mərkəzində onun həyatını və çoxşaxəli fəaliyyətini əks etdirən kitablar və videofilmlərlə tanış oldular.***

Dahi şəxsiyyətin böyük fəaliyyətini düşünərkən Vətənini hədsiz dərəcədə sevən bir insanın ölkəsinin tarixinə, mədəniyyətinə son dərəcə məsuliyyətlə yanaşdığını görür və bununla qürur duyuruq. Ulu öndərimizin həyatı, ömür yolu hər birimiz üçün örnəkdir. O, hələ təhlükəsizlik orqanı kimi mühüm bir strukturda çalışanda öz milli mənsubiyyəti ilə fəxr etmiş, qəlbində müstəqillik arzularını yaşatmışdı. Ulu öndərimizin dövlətçilik şəristəsi, dərin zəkası, idarəetmə bacarığı həmin vaxt SSRİ-nin tərkibində olan bütün xalqlar tərəfindən yüksək qiymətləndirilirdi. Ulu öndərimizə görə, müstəqil və demokratik Azərbaycan fəlsəfəsinin təməlində xalqımızın birliyi dururdu. Ümummilli liderimiz iqtisadi tərəqqi, sosial ədalət və rifah naminə daim yorulmadan mübarizə apardı və bu fəlsəfə onun memarı olduğu müstəqil Azərbaycanda öz real əksini tapdı.



Ulu öndərimiz özünün başladığı nəhəng işlərin uğurlu icrasının davamını da təmin etdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı bir liderə etibar etdiyini bildirərək xalqına müraciət ünvanladı: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

**Leytenant**
**Amid ƏSƏDOV,**
**"N" hərbi hissəsi**

***Hava Hücumundan Müdafiə Qoşunlarının "N" hərbi hissəsində ümummilli lider Heydər Əliyevin anım günü qeyd edilib.***

Şəxsi heyət ilk öncə ümummilli liderin və torpaqlarımız uğrunda şəhid olan döyüşçülərin xatirəsini bir dəqiqəlik sükutla yad edib. Sonra şəxsi heyətə dahi rəhbərin ömür yolu, dövlətimizin müstəqilliyi uğrunda həyata keçirdiyi tədbirlər, ölkəmizin tərəqqisində oynadığı rol və ordu quruculuğu ilə bağlı fəaliyyəti barəsində geniş məlumatlar verilib.

Hərbi hissədə keçirilən tədbirdən sonra şəxsi heyət rayon mərkəzindəki Heydər Əliyev Mərkəzinə yürüş etdi. Mərkəzin füsunkar təbiətin qoynunda yerləşməsi, öz əzəməti və möhtəşəm arxitekturası ilə diqqəti cəlb edir. Heydər Əliyev Mərkəzinə daxil olan şəxsi heyət ümummilli liderin həyatı, dövlətçilik fəaliyyətini əks etdirən eksponantlarla tanış olub.

Bundan sonra hərbi hissənin şəxsi heyəti ümummilli liderimizin Göygöl rayon İcra Hakimiyyətinin qarşısında, onun möhtəşəm abidəsi önündə keçirilən tədbirə qatılıb. Tədbirdə rayon rəhbərliyi, ictimai təşkilatlar, sadə vətəndaşlar, məktəblilər ümummilli liderin abidəsi önünə gül dəstələri qoyaraq onun böyük xatirəsinə öz ehtiramlarını bildiriblər.

Azərbaycan xalqının tarixində, dövlətçiliyimizin qurulmasında və inkişafında müstəsna və əvəzedilməz yer tutan ümummilli lider Heydər Əliyevin həyatı, mənalı ömür yolu şəxsi heyətə nümunə olmaqla yanaşı, azərbaycançılıq, vətənpərvərlik hisslərinin formalaşmasında mühüm əhəmiyyətə malikdir.

**Əsgər**
**İlkin HACILI,**
**"N" hərbi hissəsi**

***Hər bir kəs ilk növbədə öz xalqı, Vətəni ilə tanınır. Elə nadir insanlar da var ki, onlar mənsub olduğu xalqı, Vətəni geniş miqyasda tanıdır, şöhrətləndirirlər. Belə insanlar seçilmiş şəxsiyyətlərdir və xüsusi missiyası olan liderlərdir. Ümummilli liderimiz Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir.***

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar təntənəli tədbir keçirildi. Tədbirdə xalq şairi Fikrət Qoca,



Sosialist Əməyi Qəhrəmanı Ömər Ağayev, Hərbi Liseyin müəllim və kursantları iştirak edirdilər.

Öncə ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni oxundu.

Tədbiri açıq elan edən Cəmşid Naxçıvanski adına Hərbi Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Rəhim Səmədov tədbir iştirakçılarını salamlayaraq görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin həyat və fəaliyyətindən söz açdı. Bildirdi ki, bu gün ölkəmizin hər yerində bu böyük şəxsiyyətin anım günü xalqın yüksək ehtiramı ilə geniş qeyd edilir. Ümummilli liderin zəngin ictimai-siyasi fəaliyyətinin hərtərəfli öyrənilməsi və təbliği məqsədilə bütün bölgələrdə, idarə və müəssisələrdə, təhsil ocaqlarında yığıncaqlar, konfranslar, digər kütləvi tədbirlər keçirilir. "Hər birimiz Heydər Əliyevin Vətən və millət qarşısında misilsiz tarixi xidmətlərini minnətdarlıq hissi ilə xatırlayırıq. Azərbaycanın dövlətçiliyini bütün təhlükələrdən xilas edib qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət kimi Heydər Əliyevin həyat və fəaliyyəti müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil edir. Təsadüfi deyildir ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər tariximizin qızıl dövrü kimi yaddaşlara həkk olunmuşdur".

Polkovnik çıxışına davam edərək qeyd etdi ki, Azərbaycanın bugünkü zəngin elmi, iqtisadi, mədəni, kadr potensialının təməlində ümummilli lider Heydər Əliyevin həmin illərdə apardığı milli quruculuq işləri dayanır. "Elmə, təhsilə xüsusi diqqət yetirən Heydər Əliyev 70-ci illərdə hər il minlərlə gənci müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ayrı-ayrı şəhərlərinə göndərirdi. Həmin illərdə bir çox çətinliklər bahasına Azərbaycanda Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılmasını böyük hadisə adlandırmaq olar. Ümummilli liderimiz Azərbaycanın müstəqilliyinə inandığı üçün gələcək dövlətimizin hərbi potensiala ehtiyacını nəzərə alıb bu addımı atmışdı. Əbədiyaşar ümummilli liderimizin "Mən, Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam. Ona görə özümü çox xoşbəxt hesab edirəm" sözləri liseyə olan böyük ümidlərin təcəssümü idi. Hadisələrin sonrakı inkişafı bu dahi şəxsiyyətin uzaqgörənliyini bir daha sübut etdi. Naxçıvanskilər olaraq bizim ən böyük vəzifəmiz ulu öndər Heydər Əliyevin ideyalarının inkişafı və Azərbaycan tarixinin yeni şanlı səhifələrinin yazılması naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, ona layiqli yardımçı olmaqdır".

Kursantlar Bəhmən Məhəmmədli və Əhməd Nəsibov ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat verdilər.

Xalq şairi Fikrət Qoca çıxışında bildirdi ki, ulu öndər Heydər Əliyev min illərlə tarixi olan müdrik Azərbaycan xalqına məxsus düha idi. "1993-cü ilin iyununda hakimiyyətə qayıdanda Heydər Əliyevə dağılmış bir ölkə miras qalmışdı. Hakimiyyətsizlik, özbaşınalıq, hərc-mərclik son həddə çatmışdı. Fürsətdən istifadə edən erməni hərbi birləşmələri torpaqlarımızı işğal edir, yüz minlərlə soydaşımız öz torpaqlarında qaçqına, didərginə çevrilirdi. Amma Heydər Əliyev ümummilli lider olaraq xilaskarlıq missiyası ilə gəlmişdi. O, hakimiyyətə qayıtdı və qətiyyətlə, inamla bəyan etdi: "Azərbaycan dövlətinin müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır". Təbii ki, bu gün hər birimiz bunun şahidləriyik".



Daha sonra söz Sosialist Əməyi Qəhrəmanı Ömər Ağayevə verildi. O bildirdi ki, üç dəfə Sovet İttifaqı Kommunist Partiyasının qurultaylarına nümayəndə seçilmişəm. "Ulu öndərlə görüşlərimi, səmimi söhbətlərimi heç vaxt unuda bilmərəm. Bu gün yaşadığım evi 1980-ci ildə Heydər Əliyevin köməyi ilə almışam. 75 yaşım tamam olanda Heydər Əliyev evimizə zəng vurub məni həm yubiley, həm də Yeni il münasibətilə təbrik etdi. Mən yanvarın 1-də doğulmuşam. Elə bilirəm ki, rəhbərin bundan böyük diqqəti, qayğısı ola bilməz. Qazandığım bütün uğurların əsl səbəbkarı Heydər Əliyev olub. Ulu öndər zəhmət adamına, halallıqla ucalan insanlara böyük dəyər verirdi".

Sosialist Əməyi Qəhrəmanı çıxışına davam edərək dedi:

- 1992-ci ildə eşitdim ki, Heydər Əliyev Naxçıvana qayıdıb. "Ulu öndərin görüşünə getdik. Bizi çox səmimi qarşıladı. Gedəndə kiçik bir hədiyyə - şahmat aparmışdıq. Bilirdik ki, şahmat həvəskarıdır. Hədiyyəni məmnuniyyətlə qəbul etdi. Amma zarafatından da qalmadı: "Nə deyirsən, Ömər, hələ çox oyunçularla üzləşəcəm?" Dedim ki, siz bütün siyasi oyunlarda diplomatik gedişlərinizlə o qədər liderləri mat qoymuşunuz ki... Bu gün də Azərbaycan xalqı sizdən kömək umur, sizə ümid yeri kimi baxır. Səmimi görüşümüz uğurlu sonluqla başa çatdı. Cəmi bir il sonra arzularımız çin oldu... Ulu öndərlə sonralar da dəfələrlə görüşmüşəm. Hər dəfə eyni səmimiyyət, xoş rəftar görmüşəm".

Silahlı Quvvələrin Mahnı və Rəqs Ansamblının solisti gizir Vüsal Ağayev ulu öndərə həsr olunmuş mahnılar ifa etdi.

Sonda "Dahi şəxsiyyət" sənədlı filimi nümayiş olundu.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

***Dekabrın 11-də Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.***

Tədbir ulu öndər Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla anılması və Dövlət himninin ifa edilməsi ilə başlayıb. Sonra hərbi hissə komandirinin şəxsi heyətlə iş üzrə müavini kapitan Rəvan Ağayev "Heydər Əliyev bizim liderimizdir" mövzusunda geniş məruzə ilə çıxış edib. "Biz bu gün dahi rəhbərimizi ehtiramla yad edib qürurla anırıq" , - deyə çıxışına başlayan zabit Azərbaycan dövlətçiliyinin inkişafında misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin həyatı, siyasi fəaliyyətinin tariximizdə mühüm yer tutduğunu xüsusi qeyd edib. "Yüksək insani keyfiyyətlərinə, dövləti idarə etmək bacarığına görə Heydər Əliyev nadir tarixi şəxsiyyətlər sırasındadır. Bütün ömrünü Azərbaycan dövlətçiliyinin taleyi ilə bağlayan ulu öndər müqayisəolunmaz şəxsiyyətdir. Böyük rəhbərimiz müstəqil dövlətimizin tarixini yaradıb və şanlı səhifələri də məhz onun adı ilə bağlıdır".

Məruzədə dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin uzaqgörənliyi önə çəkilərək həm də müstəqil Azərbaycanın gələcəyini 20-30 il öncədən düşünən liderin rəhbərlik etdiyi Sovet Azərbaycanında qazandığı iqtisadi nailiyyətlərdən, təməli atılan nəhəng layihələrdən, bu layihələrin müasir müstəqil Azərbaycan üçün strateji önəmindən danışılıb. Natiq çıxışına davam edərək onu da vurğulayıb ki, hələ Sovet rejiminin ən güclü vaxtlarında yüksək hökumət dairələrinin kəskin etirazlarına baxmayaraq, ümummilli lider böyük qətiyyət nümayiş etdirərək, ölkəmizdə milli hərbi kadr hazırlığı üçün baza



rolunu oynayacaq C.Naxçıvanski adına ibtidai hərbi məktəbin yaradılmasına nail oldu. Həqiqətən, zaman göstərdi ki, bu məktəb Azərbaycanda milli ordu quruculuğunun əsasını təşkil etdi. Bu gün həmin məktəbin yetirmələri Azərbaycan Silahlı Qüvvələrinin komandirləri və generallarıdır.

Məruzənin sonunda ümummilli lider Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıdışı ilə qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsasının qoyulmasından, müstəqil dövlət quruculuğu prosesindən, milli ordunun formalaşması və Azərbaycanın Silahlı Qüvvələrinin yaradılmasından bəhs edilib.

Daha sonra mərasim iştirakçıları matros Kənan Rzazadənin "Ümummilli lider Heydər Əliyevin vətənpərvərlik ideologiyası" adlı çıxışını maraqla dinləyiblər. "O, sahib olduğu bir ömrünü millətinin qurtuluşuna həsr etdi. Bu gün müasir Azərbaycanın memarı, dahi siyasətçi və əvəzsiz lider Heydər Əliyevin vəfatından 12 il ötür. Lakin onillliklər keçsə belə, Heydər Əliyev irsinin hərarəti daim Azərbaycan adlı Vətənimizin üzərində duyulacaq, onun əziz xatirəsi və unudulmaz portreti xalqımızın yaddaşından silinməyəcəkdir. Biz gənclər bugünkü firavan həyat üçün ona borcluyuq. Ölkəmizi daim uğurlara aparmaq və əbədi firavanlığını təmin etmək bütün Azərbaycan gəncliyinin ümummilli lider Heydər Əliyevin xatirəsi qarşısında dönməz əhdidir. Nə yaxşı ki, dünya adlı bir dənizdə, Azərbaycan adlı bir gəmidə, Heydər Əliyev kimi qütb ulduzuna sahibik", - deyə matros K.Rzazadə çıxışını obrazlı şəkildə bitirib.

Anım mərasimi ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş sənədli filmin nümayişi ilə sona çatıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər:

## hadisələr, faktlar

### ABŞ-ın yeni döyüş gəmisinin mühərriki açıq dənizdə sıradan çıxıb



Kanadanın Qalifaks şəhərindən Can-Dieqoya yollanan ABŞ Hərbi Dəniz Qüvvələrinə aid "Milwaukee" döyüş gəmisi dekabrın 11-də açıq dənizdə sıradan çıxıb.

Gəminin cəmi 20 gün əvvəl, noyabrın 21-də istifadəyə verildiyi bildirilir.

"Milwaukee" qoşqu vasitəsilə Virciniya ştatındakı hərbi bazaya gətirilib. Hazırda gəmi komandası və texniki mütəxəssis heyəti hadisənin səbəblərini araşdırır. İlkin versiyaya görə, insident sürtgü yağı filtrinə metal hissəciklərin düşməsi və bu səbəbdən mühərrikin sıradan çıxması nəticəsində baş verib.

Hadisə barədə ABŞ hökumətinə də məlumat verilib.

### İspaniya yollarında sürücüsüz avtomobillər hərəkət etməyə başlayıb



İspaniyanın Qalisiya vilayətinin Viqo şəhərindən yola çıxan avtomobil Madridə qədər olan 600 kilometrlik məsafəni sürücüsüz qət edib.

"PSA Peugeot Citröen" şirkətinin Qalisiyadakı zavodunda istehsal olunmuş avtomobilin sərnişini isə vilayətin rəhbəri Alberto Nunyes Feyxoo olub.

Bu avtomobilə marşrut daxil olunduqdan sonra yol boyu o özünü tam müstəqil şəkildə idarə edir. GPS sisteminə bağlanan xüsusi proqram avtomobilin yollarda icazə verilən sürət limitini aşmadan nəzərdə tutulmuş məkana çatmasını təmin edir. Ön və arxa tərəfində qurulmuş xüsusi radarlar isə onun digər avtomobillərlə düzgün məsafə saxlamasına xidmət edir.

Bu yeni avtopilot sisteminin yaradıcıları hesab edirlər ki, 2020-ci ildə İspaniya yollarında belə avtomobillərin hərəkəti adi hal olacaq.

### İstanbul dünyanın 20-ci meqa şəhəri seçilib



İstanbul qlobal ticarət və daşınmaz əmlak fəaliyyətləri üzrə şəhərlərin seçildiyi "Global 300" araşdırmasında dünyada 20-ci, Avropada isə 4-cü sırada qərarlaşıb.

Jones Lang LaSalle (JLL) şirkəti "Global 300" araşdırmasının nəticələrini açıqlayıb. Araşdırmaya görə, dünyanın ən böyük iş mərkəzləri və daşınmaz əmlak bazarlarının seçildiyi 30 şəhər arasında İstanbul 20-ci sırada qərarlaşıb. Avropa şəhərlərinin sıralamasında isə İstanbul 4-ci yeri tutub.

Qeyd edilir ki, sürətlə böyüyən iqtisadiyyatı və əhalisinin çoxluğundan aldığı güclə İstanbul London, Paris və Moskva ilə birgə Avropanın dörd meqa şəhərindən biri olmaq yolunda irəliləyir.

### Çilidə Pinoçet diktaturası dövrünün cəlladı tutulub



Çilinin hüquq mühafizə orqanları yerli radiostansiyanın canlı yayımında Auqusto Pinoçetin diktatura rejimi dövründə siyasi məhbusları güllələdiyini etiraf edən şəxsi saxlayıblar.

Hüquq mühafizə orqanlarının əməkdaşları 62 yaşlı avtobus sürücüsü Gilyermo Reyes Rammsini radioya zəng etdiyi telefon nömrəsi ilə tapıblar. O, canlı yayımda 1973-cü ildə 10 nəfərdən çox insanı güllələdiyini, sonradan isə cəsədləri partlatdıqlarını etiraf edib.

Gilyermo Reyes Rammsi Santyaqoya aparılıb. Burada onu Çilinin məşhur hakimi, insan haqlarının pozulması işləri üzrə mütəxəssis Mario Karrosa dindirəcək.

Rəsmi məlumata əsasən, Pinoçetin diktatorluğu dövründə (1973-1990) Çilidə siyasi motivlərə görə 3225 nəfər öldürülüb və itkin düşüb, 37 mindən çox insan isə müxtəlif növ ağır işgəncələrə məruz qalıb.

### Hiroşimadakı “Atom evi” zəlzələyə qarşı təmir olunur



Kyodo agentliyi xəbər verir ki, 1945-ci ilin avqustunda ABŞ təyyarəsi tərəfindən atom hücumuna məruz qalmış Hiroşima şəhərindəki "Atom evi"ni zəlzələyə qarşı möhkəmləndirmək məqsədilə təmir işlərinə başlanılıb.

Təmir işləri zamanı "Atom evi" ilə yanaşı, bu tarixi abidənin yerləşdiyi Sülh xatirə parkının bir hissəsində də seysmik möhkəmləndirmə işləri aparılacaq.

UNESCO-nun Dünya İrsi siyahısına daxil edilmiş abidədə təmir işlərinin 2016-cı ilin martınadək başa çatdırılması nəzərdə tutulur.

### Fənər günəş enerjisi ilə qidalanır



Böyük Britaniyanın paytaxtı Londonda "Artemide" memarlıq şirkətinin dizayneri Rossi Lavqrovun dizaynı əsasında "Günəş ağac" quraşdırılıb.

Ağac formasına malik fənər günəş enerjisi ilə qidalanır. Fənər əsasən işıq diodları və günəş panellərindən ibarətdir.

"Günəş ağac" avtonom şəraitdə 3 gün fəaliyyət göstərə bilir. Onun eləcə də elektrik şəbəkəsinə qoşulmaq imkanı da var.

Maraqlıdır ki, qaranlıq düşən kimi fənərin işıqları avtomatik olaraq yanır.

### İndoneziyada gəmi qəzası: dörd nəfər ölüb, 10 nəfər itkin düşüb



Borneo adasının İndoneziyaya aid hissəsində Kapuas çayında gəminin qəzaya uğraması nəticəsində azı 4 nəfər həlak olub, 10 nəfər isə itkin düşüb. Bu barədə məlumat ölkənin fövqəladə xidmətindən verilib.

Göyərtəsində 53 nəfərin olduğu gəmi dekabrın 13-də çevrilib. Çayda 4 nəfərin - 3 qadının və azyaşlı uşağın cəsədi aşkarlanıb. İtkin düşənlərin axtarışı hələ ki, heç bir nəticə verməyib. Onların arasında 3-5 yaşlı uşaqların da olduğu bildirilir.

Gəmidə olan digər sərnişinlər və heyət üzvləri xilas edilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Milli Qəhrəmanın xatirəsinə şahmat yarışı



***Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan Respublikasının Milli Qəhrəmanı Elşad Saday oğlu Əhədovun anım günü ilə əlaqədar 2015-ci il dekabrın 14-dən 27-dək təşkil olunmuş bölüklərarası şahmat yarışlarının açılış mərasimi keçirildi. Milli Qəhrəmanın yaxın qohumlarının, Hərbi Liseyin şəxsi heyətinin iştirak etdiyi mərasim idman zalında təşkil olunmuşdu.***

Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni oxundu.

Tədbiri açıq elan edən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə rəis muavini polkovnik Rəhim Səmədov iştirakçıları salamlayaraq Hərbi Liseyin doqquz Milli Qəhrəmanından biri olan Elşad Əhədovun qısa, amma mənalı həyat yolundan söz açdı. Bildirdi ki, 1968-ci il martın 4-də Masallı rayonunun Təzə Alvadı kəndində anadan olan Elşad 1982-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olur. Sonra Ukraynanın Kamenets-Podolsk Ali Komandirlər Məktəbində təhsilini davam etdirir. 1989-cu ildə baş leytenant rütbəsi alır və təyinatla keçmiş Sovet ordusuna məxsus hərbi hissələrdən birinə rota komandiri təyin edilir, bir müddət sonra Vətəninə dönür.

Polkovnik çıxışına davam edərək tədbir iştirakçılarının nəzərinə çatdırdı ki, Vətənini canından belə çox sevən Elşad erməni işğalçılarının torpaqlarımıza hücumu zamanı Füzuli, Daşburun, Nərgiztəpə, Aşağı Veysəlli, Şişqaya və digər hərbi əməliyyatlarda iştirak edib. 11 dekabr 1993-cü ildə "Ağdaş" yüksəkliyi uğrunda gedən döyuşdə qəhrəmancasına həlak olub. Doğulduğu kənddə dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 1993-cü il tarixli fərmanı ilə Elşad Əhədov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib və 16 sentyabr 1994-cü il tarixində isə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.

Milli Qəhrəmanın qardaşı oğlu Muxtar Əhədov əmisinin xatirəsinə göstərilən yüksək ehtirama görə başda Müdafiə naziri general-polkovnik Zakir Həsənov olmaqla Hərbi Liseyin rəhbərliyinə, müəllim-kursant heyətinə öz dərin minnətdarlığını bildirdi. "Mən daim əmimlə fəxr etmişəm. Kəndimizin orta məktəbi və parkı hazırda onun adını daşıyır. Əmimin yadigarı olan oğlu müddətli həqiqi hərbi xidmətdədir və Milli Qəhrəmana layiq bir şəkildə Vətən qarşısında müqəddəs borcunu yerinə yetirir".



Hərbi Liseyin fiziki hazırlıq bölməsinin rəisi, ehtiyatda olan mayor Fərhad Əliyev isə çıxışında şahmat haqqında məlumat verdi. "Şahmat oyununun dəqiq yaşı məlum deyil. Misir, İraq və Hindistanda aparılan arxeoloji qazıntılar əsasında tapılmış materiallar şahmatın yaranma tarixini miladdan öncə II-III minilliklərə aid edir. Yazılı ədəbiyyatda bu oyun haqqında ilk məlumata V əsrə aid fars poemasında təsadüf olunur. Orada şahmat oyununun məhz Hindistanda ixtira olunduğundan söhbət gedir. Buna görə də şahmatın ixtira tarixini məhz bu dövrdən hesab edirlər".

Gənclərin əqli və mənəvi sağlamlığının cəmiyyət üçün çox önəmli olduğundan söz açan ehtiyatda olan mayor fransız alimi Paskalın "Şahmat taxtası insan zehninin gimnastika zalıdır" kəlamını misal gətirdi. "Məqsədimiz kursantlarda vətənpərvərlik ruhunu yüksəltmək, gələcəyin zabitlərində əqli təfəkkürü formalaşdırmaqdır. Kubok uğrunda 9 komanda mübarizə aparacaq. Yarış beynəlxalq qaydalara uyğun olaraq dairəvi sistem üzrə keçiriləcək. Hər bir iştirakçıya uğurlar arzulayıram".

Milli Qəhrəman Elşad Əhədovun xatirəsinə həsr olunmuş bu yarışda qalib komanda keçici kubok, fəxri fərman və medal, ikinci və üçüncü yerləri tutan komandalar isə fəxri fərman və medallarla mükafatlandırılacaqlar. Həmçinin, ən yaxşı oyunçulara hədiyyələr təqdim olunacaq.

Sonda Milli Qəhrəmanın həyat yolunu əks etdirən video-çarx nümayiş olundu.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Qılıncoynadanımız Sabina Mikina ABŞ Qran-prisində bürünc medal qazanıb



ABŞ-da qılıncoynatma idmanı üzrə Qran-pri yarışları keçirilib.

Yarışda ölkəmizi milli komandamızın üzvü Sabina Mikina təmsil edib.

Qılıncoynatmanın sablya növündə çıxış edən idmançımız bürünc medal qazanıb.

## Azərbaycan idmançısı Camal Rəhimov "Rio-2016"-ya 70 lisenziya xalı qazanıb



Azərbaycan idmançısı Camal Rəhimov Belçikada atçılığın konkur növü üzrə CSI2* kateqoriyalı "Grote Prijs Salus" beynəlxalq turnirində uğurla çıxış edib.

"Excenel V" ləqəbli atla mübarizə aparan idmançımız yarışın ilk günündə 80 çapar arasında 6-cı olub və "Rio-2016"-ya 25 lisenziya xalı qazanıb. Turnirin ikinci günündə 45 idmançı arasında ikinci olan Camal Rəhimov 45 lisenziya xalına sahib olub.

Beləliklə, Belçika turnirində Camal Rəhimov "Rio-2016"-ya 70 lisenziya xalı əldə edib.

## Azərbaycan "Formula-1" Avropa Qran-pri yarışına ciddi hazırlaşır



Azərbaycanda keçiriləcək "Formula-1" Avropa Qran-pri yarışına ciddi hazırlıq işləri görülür.

Bu sözləri jurnalistlərə müsahibəsində gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov deyib.

Nazir müavini bildirib ki, yarışın keçiriləcəyi ərazilərdəki avtomobil yolları dünya standartlarına uyğun təmir edilir. Beynəlxalq Avtomobil Federasiyası da hazırlıqla maraqlanıb öz təkliflərini verəcək.

Azərbaycanda bütün idman tədbirlərinin yüksək səviyyədə keçirildiyini söyləyən İ.İsmayılov vurğulayıb ki, hazırda "Formula-1" yarışının yüksək səviyyədə təşkili əsas diqqət mərkəzindədir.

## Futzal üzrə Azərbaycan millisi qrup lideri kimi dünya çempionatının növbəti mərhələsinə vəsiqə qazanıb




Xorvatiyada təşkil olunan futzal üzrə dünya çempionatının seçmə mərhələsində Azərbaycan milli komandası üçüncü oyununu keçirib.

Osiyek şəhərindəki Dvorana Gradski VRT idman kompleksində Xorvatiya millisi ilə qarşılaşan komandamız oyundan 4:4 hesablı heç-heçə ilə ayrılıb. Millimizin heyətində Vitali Borisov dubl edib. Hərəyə 1 dəfə Amadeu Fernandes da Silva və Sergey Çuykov fərqlənib.

Millimiz seçmə mərhələdə İsveç yığmasını 8:2, Belarus futzalçılarını isə 7:2 hesabı ilə məğlub etmişdi. Keçirdiyi üç görüşün nəticəsinə görə, 7 xalla qrup lideri olan Azərbaycan millisi dünya çempionatının növbəti mərhələsinə vəsiqə qazanıb. Qrupda ikinci pillədə olan Belarus millisi də növbəti mərhələyə vəsiqəni təmin edib.

## "Lokomotiv" voleybol klubu turnir cədvəlində liderliyə yüksəlib



Qadın voleybol komandaları arasında Azərbaycan Super Liqası yarışlarının ikinci dövrəsinin ikinci turu çərçivəsində bir oyun keçirilib.

Azərbaycan Voleybol Mərkəzində Çempionlar Liqası yarışlarında ölkəmizi təmsil edən "Lokomotiv" komandası liqada müsabiqədən kənar çıxış edən Gürcüstanın "Tbilisi" klubunu qəbul edib.

Azərbaycan təmsilçisinin üstünlüyü şəraitində keçən görüşdə "Lokomotiv" komandası 3:0 hesabı ilə qalib gəlib.

Hazırda turnir cədvəlinə 16 xalla "Lokomotiv" klubu liderlik edir. Hesabında 14 xal olan "Azəryol" və "Telekom" komandaları ilk üçlüyü tamamlayırlar.

**AZƏRTAC-ın materialları əsasında**

# Xarici hərbi xronika

## Cin 2017-ci ildə S-400 sistemi alacaq

Çin rəsmi olaraq bu il Rusiyadan S-400 "Triumf" zenit-raket kompleksinin alınacağını bildirib. Əldə olunmuş sazişin məbləği haqqında hələlik məlumat verilmir.

S-400 "Triumf" kompleksi bir neçə müxtəlif məsafəli raketlərlə təchiz olunmuş çoxkanallı, uzaqvuran zenit raket sistemidir. 2000-ci ildə Aleksandr Lemanskinin rəhbərliyi ilə hazırlanıb və 2007-cii ldə silahlanmaya qəbul edilib. İstehsalçının verdiyi məlumata görə, S-400 zenit-raket sistemi təyyarələr, helikopterlər, pilotsuz uçuş aparatları, qanadlı raketlər və maksimal sürətə malik olan taktiki ballistik raketlər daxil olmaqla, bütün hava-hücum vasitələrini məhv etməyə qadirdir.

## Rusiya raket əleyhinə sistem yaradır

"Radioelektrontexnologiyalar" konserni ABŞ-ın Avropada yaratdığı raket əleyhinə müdafiə sisteminə qarşı tədbirlər hazırlayır. Bu haqda konsernin nümayəndəsi Yuri Mayevski məlumat verib. Daha sonra o Avropada raketəleyhinə müdafiə elementlərinin neytrallaşması üçün yüksək effektliyə malik olan və müxtəlif bazalı radioelektron mübarizə kompleksinin yaradılmasına hazır olduqlarını da bildirib. Avropada raketəleyhinə müdafiə elementlərinin yerləşdirilməsi ABŞ-ın sürətli qlobal zərbə doktrinası çərçivəsində həyata keçiriləcək. Rusiya radioelektron mübarizə sistemlərinin hazırlanması üzrə lider sayılır. Bunu amerikalı hərbçilər də təsdiq edirlər. Son vaxtlar bu vasitələrin Avropada yerləşdirilməsi Rusiya və Amerika münasibətlərində əsas problemlərdən biridir. Amerika rəsmiləri elementlərin Rusiyaya və onun potensialına qarşı istiqamətlənmədiyinii bildiriblər.

**Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**



*Asudə vaxt*

# "İstirahətimiz mənalı keçir"

***Dərin səngərlərdəki müşahidə məntəqəsindən işğal altında olan torpaqlarımıza baxırıq. Yurd həsrəti, torpaq nisgili qəlbimizi çuğlayır. Düşmənə olan kinimiz, nifrətimiz daha da artır.***

Səngərlərdən qayıdanda istirahət edən əsgərlərə də baş çəkdik.

Ön xətdə xidmət edən əsgərlər asudə vaxtlarını da səmərəli keçirirlər. Onlar xüsusi ayrılmış otaqda domino, şaşki oynayırdılar.

- İstirahətimiz mənalı keçir, - dedi əsgər Nəriman Məmmədov. - Döyüş növbəsindən sonra burada dincəlirik, qəzet və jurnalları oxuyuruq. Ölkəmizdə gedən quruculuq işləri ilə yaxından tanış oluruq. Vaxtımızı maraqlı və səmərəli keçirib yüksək ovqatla torpaqlarımızın keşiyində dayanırıq.

Yurdumuza keşik çəkən zabit və əsgərlərə xidmətlərində uğurlar arzulayıb, onlardan xoş təəssüratla ayrıldıq. Əmin olduq ki, vətənpərvər döyüşçülərimiz düşmənə istənilən məqamda öz sözlərini deməyə qadirdirlər.

* * *

Hərbi hissənin idman şəhərciyində böyük canlanma var idi. Əsgərlər meydançada valeybol oynayırdılar. Kənarda dayananlar isə azarkeşlik etdikləri komandaları qələbəyə ruhlandırırdılar.

- Şəxsi heyətin asudə vaxtının səmərəli keçməsi üçün istirahət günlərində müxtəlif idman yarışları keçiririk, - deyir polkovnik-leytenant Eldəniz Daşdəmirov. - Futbol və volebol yarışları həmişə gərgin keçir və hamının dərin marağına səbəb olur. Yarışlar zamanı zabit və əsgərlərimizin həm asudə vaxtları səmərəli keçir, həm də fiziki hazırlıqlarını artırırılar. Qalib gələnlər isə komandanlıq tərəfindən fəxri fərmanlarla mükafatlandırılır. Fərqlənən zabit və əsgərlərimiz Silahlı Qüvvələrin müxtəlif idman yarışlarında da iştirak edirlər. Həmişə də layiqli yer tuturlar. Yarışlarda fəal iştirak edən hərbi qulluqçulardan baş leytenant Vüsal Əkbərov, gizir Xəyal Ağayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Akif Mehdiyev, Cahid Rüstəmov, əsgər Əfqan Babayev və başqalarının adlarını çəkmək istərdim. Onlar hərbi hissəmizin idman şərəfini uca tuturlar, yarışlardan alnıaçıq, başıuca qayıdırlar.

Voleybol yarışının gərgin anlarıdır. Bir neçə dəqiqədən sonra qalib müəyyənləşəcək. İdmançılar təmsil olunduqları komandaları irəli çıxarmağa çalışırlar. Yarışın sonunda isə qaliblər layiqincə mükafandırılacaq.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

*Publisistik düşüncələr*

# Mənəvi kamillik zirvəsi

***Şəhidlik zirvədi. Mənəviyyat, mənəvi kamillik zirvəsi, vətənsevərliyin zirvəsi...***

Şəhidlik ucalıqdı. Bu ucalıq hər yerdən aydınlığıyla görünür. Tarixin cığırdaşı olan xalqı xalq eləyən, milləti millət eləyən, dövləti dövlət eləyən bu ucalıqdı. Min illərdi belə olub, daim belə də olacaq. Cavanşir öz qəhrəmanlığı ilə Cavanşirlərin, Cavad xan Cavadların, ... Vətən sevgisinin rəmzi olub...

Yusif Mirzəyev şəhid oldu...
Koroğlu Rəhimov şəhid oldu...
Vəzir Orucov şəhid oldu...
Yaşar Göyüşov şəhid oldu...

Vətən üçün döyüşüb Vətən uğrunda şəhid olan bu oğulları yaxından tanıyırdım. Yusiflə Ağdərədə, Koroğluyla Tapqaraqoyunluda, Karmiravanda, Vəzirlə Tərtərdə, Yaşarla Zəligöldə, Ömər aşırımında çox kəlmələşmişdik. Vətən kəlməsinin, torpaq kəlməsinin müqəddəsliyini onların söhbətlərindən daha həssaslıqla, daha heysiyyətlə duymuşdum. Onu da duymuşdum ki, onlar Nəbi Xəzri demişkən, "qılıncı qınsız, qolu zorlu olan dünyada" öz ömrünü yaşamır, torpağa, Vətənə ad olan ömür yaşayır.

Yusifin bir kəlməsi məni varımdan yox eləmişdi:

- "Dədə Qorqud" bədii filmindən Qazan xanın oğlu Turalın anasına xitabən dediklərini Vətənə oğul olanların hamısının yaşam düsturu bilmişəm: "Bir mən olmasam, dünya dağılmaz. Atam sağ olsun, sən sağ ol!". "Atam", "anam" kəlmələri "Vətən" kəlməsinin eynidir" - düşünmüşdüm...

Yusif şəhid oldu.

1994-cü ilin mayı idi. Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyev adına orta məktəbdə anım günüydü. Onda Yusifin dediklərini şagirdlərə çatdıra bildim. O şagirdlərin özləri də, oğulları da zabit, əsgər olacaq. O əsgər oğullar da torpaqlarımıza Yusifin işığından baxacaq, şübhəsiz. Baxacaq, Vətənin müqəddəsliyini daha dəruni istəklərlə duyacaq. Zərrəcə şübhə etmirəm ki, Yusifin ruhu onların da alqışçısı olacaq; şəhidlik zirvəsindən eşidilənlər Vətənin sözüdü. Nə deyir Vətən? Vətən bizlərə nələr deyir? - "Qoruyun torpaqlarımızı. Hər ürək bir səngər dirəyi olan zaman qorunan torpağa zaval yoxdu...". Azərbaycan əsgəri səngərlərdə bu amalla dayanır.

Şəhidlik ölümün məğlubiyyətidi; ölümsüzlüyün, əbədiyyətin dərki bu məfhumla bağlıdı. Hərbi andda deyilən "...lazım gələrsə, canımdan da keçməyə hazıram" fikri "...şəhid olmağa da hazıram" fikrinin eynidi. Himnimizdə deyilən kimi, ...Səndən ötrü can verməyə cümlə qadiriz...

Koroğlu Rəhimov deyirdi ki, Vətənin, torpağın təəssübünü çəkməyənə oğul deyilmir. Düşmənin mərmiləriylə, güllələriylə yaralanmış bu torpaqlarda güllər-çiçəklər bitəcək. Onu şəhidlərin xeyir-duasıyla qazilər bitirəcək...

Onda yaza bilmədiyim misraları indi yazıram. O misraları Rəşid Faxralı ilə Koroğlu Rəhimovun şərikli misraları bilin:

Vətəndi qaya da, torpaq da, daş da,
Tarix yazacağıq qayada, daşda,
Odlar diyarının vətəndaşıyıq.
Şəhid olmağa da hazırıq, Vətən,
Səngər sinəmizlə Vətən daşıyıq!..

Yaşar Göyüşov unutmadığı, unuda bilmədiyi, unutmayacağı döyüşçü yoldaşlarından danışanda qəhərlənirdi. "Onların ruhu həmişə sıramızdadı. Döyüş başlayanda elə bilirəm Rəhman da, Sabir də, Vasif də yanımdadı. Şəhidlik Vətən sevgisinin nəticəsidi. Onların Vətən sevgisini son nəfəsimizəcən yaşadacağıq. Son nəfəsimiz şəhidliklə gələrsə, nə xoş..." - deyirdi...

Dövlət, dövlətçilik şəhidliklə qorunub, mühafizə edilib, yaşadılıb. Səlcuqlu Türk dövlətinin başçısı Süleyman şah Suriya ilə döyüşdə (1086-cı il) təslim olmamaq üçün intihar edib. Son nəfəsində "Mən türklüyümə və mənliyimə yaraşan iş tutdum", - deyib. 907 il sonra, 1993-sü ildə Füzulidə mayor Rasim İbrahimov son məqama kimi mərdliklə, cəsarətlə döyüşdü, təslim olmadı, ömrünə qumbaranı partlatmaqla son qoydu. Etibar Hüseynov Horadizdə, Baloğlan Zəngilanda qumbarası ilə düşmən tankının altına atıldı. Mübariz İbrahimov şəhidliyinə kimi güllələrini düşmənin canında soyutmaq üçün düşmənin içinə getdi. Süleyman şah kimi, Rasim İbrahimov kimi onlar da şəhid oldu. Tarix digərləri kimi qəhrəmanları da qürurla yaşatmaqdadır. Yaşadacaq da.

Səlcuqlu sultanı Alparslan (1028-1072) Malazgird zəfəri ərəfəsində ağ paltar geyinərək sərkərdələrinə deyib: "Bu, mənim şəhidlik kəfənimdi. Savaş meydanında ölsəm, məni bu paltarda dəfn edərsiniz". Zaman dəyişib, vətənsevərlik, həminki vətənsevərlikdi, ruh həminki ruhdu. Ermənilər işğal olunmuş torpaqlarımızdan çıxmasa, oğullar döyüşlərə Alparslan qüdrətiylə, Alparslan ruhuyla gedəcək! Döyüşlərin sonunda qələbə bizim olacaq!..

Yaşarın dedikləri o vaxtlar ürəyimi titrətmişdi. Yadıma düşdükcə yenə titrədir. Bir vaxtlar əvvəl riyaziyyat müəllimi olduğum bu böyük ürəkli döyüşçünün düşüncələrindən qürurlanmışdım. Bir boy da dikəlib Murovdağın o üzünə sarı boylanmışdım. Yaşar bir ay sonra, 1994-cü ilin qışında Kəlbəcər əməliyyatında şəhid oldu. O vaxta kimi hər sözü-söhbəti Vətənə ad olan döyüşçü son nəfəsində də "Və-tən!" deyə bilibmi görəsən?!..

Sevilin 3 yaşı vardı. Himnimizi eşidəndə o da oxuyurdu. Harda olmasının fərqinə varmadan: "...Səndən ötrü can verməyə cümlə hazırız...". Sevil böyüdü, ali təhsil aldı, tərtibatçı-rəssamdı. Övladlarını da bu ruhda böyüdəcəyinə inanmamaq günahdı. Vətən sevgisinin haləsi "...Səndən ötrü can verməyə cümlə hazırız..." kəlmələrinin işığında sərhəd bütövlüyü ilə görünür, daha əzəmətlə səslənir.

"Gəlimli-gedimli, son ucu ölümlü dünyada" ölüm Vətən naminə ölümdürsə, onu necə ömür bilməyəsən? Bu ölüm şəhidlikdi...

...Olmuşları, olanları xatırlayanda bir daha (həm də tərəddüdsüz!) inanırsan ki, şəhidlik mənəvi kamillik zirvəsidi. Dan yerindən çıxan Günəşi də ilk olaraq o zirvə salamlayır!..

**Rəşid HÜSEYNOV,
"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 1008
Nüsxə 4710